**A Z Ə R B A Y C A N   T İ B B   U N İ V E R S İ T E T İ**

**Ə M R**

**№____**

**Bakı şəhəri** **“____” dekabr 2021-ci il**

**“2022-ci ildə Mülki Müdafiə (MM) üzrə hazırlığın təşkili haqqında”**

”Mülki Müdafiə haqqında” Azərbaycan Respublikası Qanununun, “Mülki müdafiənin təmin edilməsi barədə” Nazirlər Kabinetinin 1998-ci il 25 sentyabr tarixli 193 saylı Qərarının və digər normativ sənədlərin tələblərinin yerinə yetirilməsi məqsədi ilə obyektdə tədbirlərin planlaşdırılması və həyata keçirilməsi, ehtimal olunan və ya baş vermiş fövqəladə hadisələrin qarşısının alınması və nəticələrinin aradan qaldırılması, ilkin qəza-xilasetmə işlərinin aparılması üçün Azərbaycan Tibb Universitetinin şəxsi heyətinin mülki müdafiə üzrə hazırlığının təmin olunması məqsədi ilə

**Ə M R   E D İ R Ə M:**

1. Qeyd olunan rəhbər sənədlərin tələblərinə müvafiq olaraq, Azərbaycan Tibb Universitetində mülki müdafiə üzrə hazırlığın keçirilməsi məqsədilə aşağıda göstərilən tədris qrupları yaradılsın:
   - rəhbər heyətin daxil olduğu 1-ci qrup;
   - MM qüvvələrinin komandirlərinin daxil olduğu 2-ci qrup;
   - MM qüvvələrinin daxil olduğu 3-18-cı qruplar;
   - MM qüvvələrinə daxil edilməmiş işçilərin daxil edildiyi 19-50-cü qruplar;
2. Tədris qruplarının rəhbərləri bu əmrə əlavə №-1-ə uyğun olaraq dekanlar, kafedra müdirləri və bölmə rəisləri təyin edilsin.
3. Rəhbər heyətlə məşğələlər 15 saatlıq proqram üzrə təşkil edilsin, məşğələləri obyektin Mülki Müdafiə rəhbəri, rektor Gəray Gəraybəyli aparsın.
4. Hərbiləşdirilməmiş MM qüvvələrinin şəxsi heyəti ilə məşğələlər 15 saatlıq (9 saat ümumi və 6 saat xüsusi) proqram əsasında təşkil edilsin və MM qüvvələrinin komandirləri, qrup rəhbərləri təyin edilsin.
5. MM qüvvələrinə cəlb olunmayan işçilərlə məşğələlər 12 saatlıq proqram əsasında aparılsın.
6. Klinikaların həkim və orta tibb işçiləri ilə MM hazırlığı “Təbii fəlakətlər və digər fövqəladə hallarda təcili tibbi yardımın təşkili” üzrə 35 saatlıq proqram əsasında aparılsın.
7. MM qərargah rəisi tədrisin təşkili və məşğələlərin əyani tədris vasitələri və lazımi ədəbiyyatla təmin olunması məsələlərini həll etsin.
8. Hazırlığın tədrisinə 2022-ci ilin yanvar ayının 5-dən başlansın və noyabr ayının 30-da başa çatdırılsın.
9. Əmrlə bütün qrup rəhbərləri tanış edilsin.
10. Əmrin icrasına nəzarət MM qərargahının rəisinə tapşırılsın.

**REKTOR** **professor GƏRAY GƏRAYBƏYLI**

“Razılaşdırılıb”
Ümumi Işlər üzrə prorektor Nizami Adilov

Hazırladı:
Mülki müdafiə qərargah rəisi Firdovsi Məmmədov